**Ülya Abdullayeva**
**dissertant**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**E-mail:** ulya.abdullayeva@yahoo.com

# Cəlal Qaryağdı yaradıcılığında memorial heykəltəraşlığın bədii xüsusiyyətləri (qəbirüstü abidələr əsasında)

**Xülasə:** Məqalədə Azərbaycan heykəltaraşlıq məktəbinin banilərindən biri olan tanınmış heykəltaraş rəssam Cəlal Qaryağdının yardıcılığı araşdırılmış, əsasən qəbirüstü abidələri tədqiqata cəlb edilərək rəssamın yaratdığı əsərlərin bədii xüsusiyyətləri təhlil edilmişdir.

**Açar sözlər:** memorial, qəbirüstü abidə, heykəltəraşlıq, Cəlal Qaryağdı, Fəxri

Memorial-xatirə heykəltəraşlığının yaranma tarixinə nəzər yetirsək, onun daha qədim tarixə malik olduğunu müşahidə etmiş olarıq. Belə ki, hələ ibtidai dövrdə dünyasını dəyişən insanın ikinci bir həyatının olmasına – axirət dünyasına inam hissi memorial-xatirə heykəltəraşlığının ilkin nümunələrinin yaranmasını şərtləndirmişdir. Bu mənada menhirləri, skif tayfalarına məxsus stelaları və digər qədim ölkələrin ibtidai heykəltəraşlıq nümunələrini qeyd etmək olar.

Qəbirüstü abidələrin meydana gəlməsində eyni zamanda əcdadlarımızın dəfn mərasimləri mühüm rol oynamışdır. Bir çox qədim ölkələrdə olduğu kimi Azərbaycanda da dünyasını dəyişən insanın xatirəsinin məzarüstü abidə ilə əbədiləşdirilməsinin tarixi çox-çox qədimlərə gedib çıxır. Bunu Azərbaycanın müxtəlif bölgələrində aparılan arxeoloji qazıntılar zamanı tapılan qəbirlər üzərindəki insan və heyvan fiqurları sübut edir.

Qeyd edək ki, XIX-XX əsrlərdə yaşayıb yaratmış, cəmiyyətin tərəqqisinə önəmli xidmət göstərmiş böyük şəxsiyyətlər dünyasını dəyişəndən sonra onlara dövlət tərəfindən abidə ucaldılır, yaşadığı evin divarına xatirə lövhəsi vurulur, qəbirüstü abidələr qoyulur. Onların məzarları uzaqda, nəzərə çarpmayan, gözdən uzaq yerdədirsə, xüsusi sərəncamlarla bir məkana yığılır, onları unutmamaq, tez-tez yad etmək üçün abad xiyabanlar düzəldilir. Məhz bu məqsədlə Bakıda 1948-ci ildə Fəxri Xiyaban yaradılmışdır.

"Keçən əsrin 50-ci illərində Fəxri Xiyabanda memorial abidələrə az rast gəlinirdi. Qəbirüstülərin inşasında əsasən betondan tökülmüş büstlərdən və qranitə döymə üsulundan istifadə edilirdi. Az sonra qəbirüstü abidələrin həllində relyefli təsvirlər (barelyef və qorelyef) də əmələ gəlməyə başladı. Bu

dövrdə Fəxri Xiyabanda dəfn olunanların bəzilərinə abidələr qoyulur, bəziləri isə ənənəvi qəbirüstü formatda həll olunurdu. Qısa müddətdən sonra Azərbaycanın görkəmli heykəltəraşlarının işləri Fəxri Xiyabanda görünməyə başladı. Burada ucaldılan hər memorial abidə bir sənət əsəridir. Bu səbəbdən buranı ziyarət edən hər kəs bu məkanın sehrinə düşərək qəribə hisslərlə baş-başa qalır [4].

Dünyasını dəyişən görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirən heykəltəraşlardan biri də Azərbaycanın Xalq rəssamı, görkəmli heykəltəraş Cəlal Qaryağdıdır (1914-2001). Bu mənada heykəltəraşın Birinci və İkinci Fəxri Xiyabanda, eləcə də respublikanın müxtəlif bölgə qəbiristanlıqlarında yerləşən qəbirüstü abidələrini qeyd etmək olar. Heykəltəraşın müxtəlif xarakterli insanların obrazlarını bədii görüntüyə gətirən memorial heykəltəraşlıq qalereyasında görkəmli ədib, elm və mədəniyyət xadimləri – Xalq şairi Səməd Vurğun (1957), akademik Yusif Məmmədəliyev (1963); bəstəkarlar Zülfüqar Hacıbəyov (1962) və Soltan Hacıbəyov (1965), müğənni Nəzakət Məmmədova (1963), görkəmli dramaturq Cəfər Cabbarlının həyat yoldaşı Sona xanım Cabbarlı (1971), tarzən Hacı Məmmədov (1982); ictimai-siyasi xadimlər – 1945-1946-cı illərdə Cənubi Azərbaycanda qurulan Azərbaycan Milli Hökumətinin sədri Seyid Cəfər Pişəvəri (1963), zabit Elşən Zeynalov (1986), eləcə də müxtəlif peşə adamları – tanınmış mühəndis Qalib İsgəndərov (1969), güləşçi İbrahim Paşa Dadaşovun (1991) və b. qəbirüstü abidələri xüsusi yer tutur.

Qeyd edək ki, Cəlal Qaryağdı yaradıcılığında yer almış memorial xatirə abidələri özünün forma-biçim müxtəlifliyi və yüksək bədii həlli ilə seçilir.

1957-ci ildə Cəlal Qaryağdı Səməd Vurğunun memorial abidəsini hazırlayır. “Qəbirüstü mərmər lövhənin üstündə Səməd Vurğunun tunc qorelyefdə verilən iriölçülü portret cizgilərində şairin həyata fəal və çılğın fəaliyyəti ifadə olunur. Əlavə aksessuarların təsvirindən imtina edən heykəltəraş lakonik, hamı tərəfindən tanınan və sevilən şair obrazını qəbirüstü abidədə kompozisiyanın dominantına çevirə bilmişdir” [3, 36-37]. Qeyd edək ki, Cəlal Qaryağdının Səməd Vurğunla olduqca yaxın dostluq münasibətləri olmuşdur. Belə ki, onlar dəfələrlə birlikdə ova getmiş və sıx-sıx ünsiyyətdə olmuşlar. Heykəltəraş eyni zamanda Səməd Vurğun poeziyasının vurğunu idi. Təbii ki, bütün bunlar nəticədə gözəl sənət əsərinin yaranmasına səbəb olmuşdu. Qeyd edək ki, Səməd Vurğunun abidəsini hələ şairin sağlığında yaradılması nəzərdə tutulurdu. Cəlal Qaryağdı heç arzulamazdı ki, şairin qəbirüstü abidəsinin üzərində işləsin. Ancaq zaman öz axarında davam edirdi. Həyat eşqi bitib-tükənməyən şairin qəbirüstü abidəsinin qranit plitəsi üzərinə həkk olunmuş poeziya nümunəsi onu ziyarət edənləri Səməd Vurğunun duyğular və arzular dünyasına aparır. Ciddi və çox dəqiq hazırlanmış portret poetik təsir bağışlayır.

"Xatirə abidələrinin qoyulmasında əsas məsələlərdən biri onun qoyulacağı yerlə abidəni əhatə edən ətraf mühit arasında üzvi əlaqədir. Tişə ustasının yaratdığı bəstəkar Zülfüqar Hacıbəyovun qəbirüstü abidəsi yerləşdiyi məkanla tam vəhdət təşkil edir. 1962-ci ildə hazırlanan qəbirüstü abidənin sinədaşının başdaşıyla bağlılığı ilk baxışdan nəzəri cəlb edir. Belə ki, başdaşının yuxarı hissəsindəki bəstəkarın barelyefi dərin olmayan relyeflə hazırılanmışdır. Buna görə də abidənin kompozisiyası dəqiq oxunur" [2, 54]

Cəlal Qaryağdı musiqinin dilini, təsir qüvvəsini yaxşı anladığından Azərbaycan musiqi sənətinin korifeylərindən "Gülşən" baletinin, "Karvan" simfonik lövhəsinin və digər musiqi əsərlərinin müəllifi Soltan Hacıbəyovun qəbirüstü abidəsində bəstəkarın daxili aləmini musiqinin dili ilə açılmasına nail olmuşdur.

Görkəmli Azərbaycan tarzəni, Azərbaycan SSR-nin Xalq artisti Hacı Məmmədovun (1982) məzarı ağ-boz zolaqları olan qranitlə əhatələnmiş ərazidə sinə daşı və onun sol tərəfində kiçik postament üzərində qoyulan portretdən ibarətdir. Sinə daşı ilə portretin postamenti qırmızı qranitdən hazırlanmışdır. Mərmər materialından işlənmiş portretdə Hacı Məmmədov tar ifa edən zaman təsvir edilmişdir. Əsərin kompozisiya həlli çox maraqlıdır. Kiçik portret çox böyük təsirə malikdir. Tarzən gözlərini uzaqlara zilləyib, öz musiqi dünyasına qərq olub. Portretə baxan hər bir şəxsi də öz sehrli musiqi aləminə aparır, sən sanki bir mərmər parçasından yonulmuş əsəri yox, canlı bir tarzənin ifasını izləyirsən.

Heykəltəraş tərəfindən 1963-cü ildə hazırlanan Seyid Cəfər Pişəvərinin qəbirüstü abidəsi də özünün əzəməti həlli ilə seçilir. Xalqını azad və xoşbəxt görmək istəyən Pişəvərinin heykəlində əyilməzlik, mübarizə əzmi önə çəkilmişdir. Heykəltəraş müəmmalı şəkildə avtomobil qəzasında həlak olan inqilabçı və ictimai xadimin əməllərinin ölməzliyinə Pişəvərini ziyarət edənləri inandıra bilmişdir.

İkinci Fəxri Xiyabanda ucaldılan xatirə abidələrindən biri də mühəndis Qalib İsgəndərova (1969) məxsusdur. Bu məzar bütöv bir kompleks şəklində düzəldilmişdir. Qara qranit ilə döşənmiş geniş bir ərazinin mərkəzində Qalib İsgəndərovun və onun hər iki tərəfində ailə üzvlərinin məzarları yerləşdirilmişdir. Mərhumun qəbirüstü abidəsi dördbucaqlı müstəvinin tam mərkəzində yerləşən üçbucaq formalı plitədən ibarətdir. Plitənin yuxarı hissəsində gənc yaşlarında vəfat edən Qalib İsgəndərovun portreti yonulmuşdur. Bəlkə də vaxtsız dünyadan köçdüyünə görə mərhumun obrazı sakit və əhval-ruhiyyəsiz görkəmdə verilmişdir. Digər məzarların başdaşı hissəsində oyma üsulu ilə incə naxışlar işlənilmişdir.

1971-ci ildə ərsəyə gələn Azərbaycan dramaturgiyasının parlaq nümayəndəsi Cəfər Cabbarlının həyat yoldaşının xatirə abidəsi uzunsov

steladan ibarətdir. Stelanın yuxarı sol küncündə Sona xanım Cabbarlının profildən portreti yonulmuşdur. Portretin ətraf hissəsində müxtəlif səviyyəli dilimli boşluqlar yaradaraq işə canlılıq vermişdir. Qara qranitin yonulmuş daxili təbəqəsi tünd boz rəngdə olduğundan insanın nəzərini dərhal portretə yönəldir. Sona xanımın qəmli cizgiləri, gözlərinin boşluğa zillənməsi onun Cəfərsiz yaşadığı illərinin bədii təcəssümüdür. Sənətkar Sona xanımın simasında daxilində keçirtdiyi həyəcanları əks etdirə bilmişdir. Çünki Sona xanım həmişə öz xatirələrində həyat yoldaşının yoxluğunun çətinliyini, acılarını qeyd edərdi. Cəlal Qaryağdı sinə daşının bir hissəsində Cəfər Cabbarlının bu dörd misrasını həkk etmişdir:

Ölmək! O geniş körpüdən hər kəs keçəcəkdir,
Bir badə ki, ondan bütün aləm içəcəkdir!
Hər süslü çiçək sonda saralmış quru yarpaq,
İnsan, o nədir? Əvvəli torpaq, sonu torpaq!

Cəlal Qaryağdı 1986-cı ildə Əfqanıstan müharibəsində həlak olmuş zabitimiz Elşən Zeynalovun xatirəsinə ucaldılan qəbirüstü abidənin də müəllifidir. Abidə Abşeron rayonunun Mehdiabad qəsəbəsindəki qəbiristanlıqda mərhum zabitimizin məzarı üzərində qoyulmuşdur. Qranit materialından hazırlanmış dördbucaqlı başdaşının yuxarı hissəsində qəhrəmanın portreti əzəməti ilə seçilir. Natural ölçüdə olan büstdə Elşən Zeynalov hərbi formada təsvir edilmişdir. Onun obrazında qəhrəmana xas ruh yüksəkliyi görmək olur.

Dəfələrlə SSRİ çempionu olmuş İbrahim Paşa Dadaşovun qəbirüstü abidəsi (1991) qırmızı qranit dördkünc kürsü üzərində yerləşdirilmiş büstdən ibarətdir. Güləşçinin yaxasında təsvir edilmiş medallar ümumi obrazın tamamlanmasına xidmət edir. Tunc materialından hazırlanmış portretdə İbrahim Paşanın idmançıya xas cəsarətli, qorxmaz baxışı xüsusilə qeyd edilməlidir.

Yuxarıda qeyd etdiyimiz qəbirüstü abidələrlə yanaşı Cəlal Qaryağdının digər memorial əsərləri də mövcuddur ki, onlar bir qədər özünün sadə kompozisiya həlli ilə seçilir. Bu baxımdan onun Azərbaycan SSR Əməkdar incəsənət xadimi dirijor Çingiz Hacıbəyovun (1972), Qubadlı Qəza Partiya Komitəsinin birinci katibi Mirağa Əliyevin (1974), Azərbaycan SSR Avtomobil Nəqliyyatı nazirinin müavini İmran Gülməmmədovun (1976) və Azərbaycan SSR Əməkdar mühəndisi Ənvər İsmayılovun (1989) qəbirüstü abidələrini qeyd etmək olar ki, hər biri sadə başdaşı və sinə daşından ibarətdir. Ənənəvi olaraq başdaşına mərhumların ad və soyadı, doğum və ölüm tarixləri həkk olunmuşdur. Burada heykəltəraş qranitə döymə üsulundan istifadə etmişdir. İşıq-kölgə effektini məharətlə verərək düz səth üzərində həcm yaratmışdır.

Cəlal Qaryağdı yaradıcılığında mühüm yer tutan memorial heykəltəraşlığın səciyyəvi xüsusiyyətlərini şərtləndirən başlıca amillərdən biri budur ki, heykəltəraş hazırladığı qəbirüstü abidələrin layihəsini heç bir memar ilə məsləhətləşmədən, hər bir xırda detaladək düşünülmüş şəkildə özü cızırdı. Nəzərə almaq lazımdır ki, bu çox çətin iş prosesidir. Heykəltəraşda məzar daşlarına doğru yanaşma var idi. Çünki burada abidənin ətraf mühitlə harmoniyası, kompozisiya quruluşu, obraza görə material seçimi və müxtəlif materialların burada işlənməsi, onların rəng həlli, üzərlərində yazı və ornamentlərin həkk edilməsi bir vəhdət təşkil etməlidir. Ona görə də Cəlal Qaryağdı işlədiyi hər bir əsərə onların dövlət və ya fərdi sifariş xarakterli olmasından, eyni zamanda işin həcmindən asılı olmayaraq eyni məsuliyyətlə yanaşmışdır. Bunu onun işlədiyi bütün əsərlərdə, eləcə də qəbirüstü abidələrdə aydın görmək olur. Məhz buna görə də onun əsərləri digərlərindən icra tərzinə görə fərqlənirlər. Hətta ənənəvi başdaşı və sinə daşından ibarət olan qəbirüstü abidələrdə oyma üsulu ilə yazı və ornamentlərin həkk olunması belə özündə şairanəlik daşıyır, onlarda kompozisiya quruluşuna uyğun dəyişir. Burada Cəlal Qaryağdının gözəl xəttat olması açıq-aydın görünür və daha bir istedadı üzə çıxırdı.

Cəlal Qaryağdının son memorial heykəltəraşlıq əsəri Aleksandra Petrovna Yefremovanın xatirəsinə həsr edilmiş qəbirüstü abidədir. Ağ rəngli bütöv mərmər blokdan yonulmuş qəbirüstü abidə 2000-ci ildə hazırlanmışdır.

Nəticə etibarilə qeyd edək ki, dünyasını dəyişən şəxsin xatirəsini əbədiləşdirmək üçün qoyulan qəbirüstü abidələr, memorial xatirə və memarlıq nümunələri həmin dövrün tarixi və ictimai mənzərəsini min illər boyunca əks etdirmək gücünə malik sənət yaddaşımızdır. Görkəmli sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev heykəltəraşlarımızın hazırladığı qəbirüstü abidələri "Fəxri Xiyabanı muzeyə çevirən əsərlər" adlandırır [1]. Belə ki, dövrün ictimai və ideoloji xüsusiyyətlərini, insanların dünyagörüşünü, etik və estetik ideya və zövqünü əks etdirən memorial xatirə abidələri Vətən tarixinin daş səhifələridir. Xalqın milli mənsubluğunu, tarixini, mədəniyyətini tanıdan görkəmli şəxslərin tanıdılması qədirbilənliklə yanaşı, dünənimizə diqqətdir.

## Ədəbiyyat:

1. Əliyev Z. "Fəxri Xiyabanı muzeyə çevirən əsərlər", Azpress.az, 2 avqust 2017.
2. Əfəndiyev R.S. "Azərbaycan heykəltəraşlığının qaynaqlarına doğru" // Qobustan jurnalı, 1983, № 2.
3. İbrahimov T. Cəlal Qaryağdı. "Sərvət". Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2013. 104 səh.

4. Məhəmməd Nərimanoğlu. "Bakının abidə insanları", "Tele-inform" xəbərlər mərkəzi, 29 oktyabr 2017.
5. Tərlanov M. Cəlal Qaryağdı, Bakı, Azərnəşr, 1958. 80 s. xiyaban.

## Художественные особенности мемориальной скульптуры в творчестве Джалала Гарягды (на основе надгробных памятников)

### Резюме

В статье исследовано творчество известного скульптора Джалала Каръягды, одного из основателей Азербайджанской скульптурной школы, в частности, были изучены надгробные памятники, созданные художником и проанализированы художественные особенности его произведений.

**Ключевые слова:** Мемориал, надгробный памятник, скульптура, Джалал Гарягды, Аллея почетного захоронения.

## Artistic features of the memorial sculpture in the works of Jalal Garyagdi (based on tombstones)

### Summary

The article examines the work of the famous sculptor Jalal Garyaghdi, one of the pioneer monumentalist sculptor of Azerbaijan, and analyzes the artistic features of his works, mainly by studying his monuments.

**Key words:** Memorial, tombstone, sculpture, Jalal Garyagdy, Alley of Honor.